# Azərbaycanda qeyri-neft erası başlanıb




**Xalqımızın müdrik lideri, Prezident İlham Əliyev Azərbaycan dövlətinə rəhbərlik etdiyi ilk gündən ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafını əsas vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə son 16 ildə bu istiqamətdə uğurlu işlər görülüb, lakin qarşıda daha böyük hədəflər dayanır.**

Konkret rəqəmlərə müraciət edək. 2003-cü ildən bu yana ölkə iqtisadiyyatı 3,3, qeyri-neft sektoru isə 2,8 dəfə artmışdır.

Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, bizim iqtisadiyyatımızın əsas hissəsini neft-qaz sektoru təşkil edir. Bu, təbiidir. Bu, demək olar ki, neft-qazla zəngin olan bütün ölkələrdə müşahidə edilən mənzərədir və bu, faktdır. Dövlət başçısı deyib: “Bəzi hallarda bunu mənfi amil kimi yozurlar. Mən bunu mənfi amil kimi qəbul edə bilmərəm, çünki məhz neft-qaz sektorunun inkişafı hesabına biz böyük infrastruktur layihələri icra etmişik, neft-qaz sektorunun gəlirləri hesabına biz 300 mindən çox köçkünü yerləşdirmişik, biz ordumuzu gücləndirmişik, biz böyük sosial layihələri icra etmişik. Azərbaycanın zəngin torpağı, təbii ehtiyatları var. Ən başlıcası, xalqımız əməksevər və torpağa bağlı insanlardır.

Dövlətimizin güclü, qüdrətli olması, xalqımızın daha xoşbəxt, firavan yaşaması üçün ölkəmizin bütün təbii və intellektual sərvətləri hərəkətə gətirilməli, Azərbaycan sivil dünyanın ən qabaqcıl dövlətləri arasında yer almalıdır. Azərbaycan Prezidenti İlham Əliyevin məhz bu amalla ölkədə sosial-iqtisadi və struktur islahatlarına başlayıb. Ortada güclü siyasi iradə var və islahatların uğurla başa çatacağına heç bir şübhə yoxdur.

Qeyri-neft sektoru deyəndə, ilk növbədə, insanın gözləri qarşısında kənd təsərrüfatı canlanır. Azərbaycanda aqrar sektorun potensialı böyükdür. Aparılan islahatlar nəticəsində bu sahədəki ehtiyatlardan səmərəli istifadə olunmağa başlanılıb. İlk uğurlar sevindiricidir. Əvvəllər bu sahədə artım cəmi iki-üç faiz təşkil edirdisə, bu ilin 7 ayı ərzində kənd təsərrüfatı məhsullarının istehsalı 7 faizdən çox artmışdır.

Təqdirəlayiq haldır ki, aqrar sektorda bir vaxtlar unudulmuş, diqqətdən kənarda qalan sahələrin inkişafı üçün geniş imkanlar açılmışdır. Belə sahələrdən biri də pambıqçılıqdır. Axır vaxtlar bu sahəyə diqqət və qayğının artması sayəsində “ağ qızıl” istehsalı dəfələrlə artmışdır.

**Məsələn, son illər Muğanda pambıqçılığın inkişafı əhalinin məşğulluğunu və gəlirlərinin nəzərəçarpacaq dərəcədə artması ilə nəticələnmişdir. Sabirabaddan olan məşhur pambıq ustası, Sosialist Əməyi Qəhrəmanı və 1-ci dərəcəli “Əmək” Ordenli Fatma Hüseynova ürək sözlərini belə ifadə etdi:**

– Azərbaycan Prezidenti möhtərəm İlham Əliyev pambıqçılığın inkişafına yaşıl işıq yandırmaqla, biz pambıqçıları son dərəcə sevindirmişdir. Başçılıq etdiyim fermer təşərrüfatının üzvləri son illər bol məhsul yetişdirərək, yaxşı da qazanc əldə edirlər. Hər birimiz cənab Prezidentimizə son dərəcə minnətdarıq.

Azərbaycanın şimal bölgəsində, o cümlədən füsunkar təbiətə malik olan Qubada meyvə istehsalı ilbəil artır. Yerli fermerlər hesab edirlər ki, dövlətimizin, şəxsən Prezident İlham Əliyevin bu sahəyə diqqət və qayğısı olmasaydı, bu qədər uğur əldə etmək mümkün deyildi.

Rayonun Birinci Nügədi kəndindən olan qabaqcıl fermer Ramiz Kərimov deyir ki, onun ən ümdə arzusu Qubanın məşhur ağ almasının Avropa ölkələrinin bazarlarına kütləvi şəkildə çıxdığı günün şahidi olmaqdır. Fermer əmindir ki, bu bərəkətli torpaqda yetişən dadlı, şirəli meyvələr xarici ölkələrə ixrac edilərək ölkəmizin büdcəsinə valyuta axınına səbəb olacaq.

Fermeri qəlbən razı salan həm də odur ki, Azərbaycanın bütün bölgələri kimi, Quba şəhərində, rayonun bütün yaşayış məntəqələrində geniş-tikinti-quruculuq işləri görülür. R.Kərimov dedi ki, Qubada son illər o qədər gözəl, rahat yollar çəkilib ki, qəlbimiz fərəhlə dolur.

Azərbaycanın qeyri-neft sektoru inkişaf etdikcə, ölkəmizdə məşğulluq artır, əhalinin maddi durumu yaxşılaşır. Bu sahədə aparılan islahatların məramı məhz budur.

***Məsaim ABDULLAYEV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2019.- 30 oktyabr. S. 4.